


# Atatürkün 93 əvvəlki vəsiyyəti

## Və ya Türkiyəni regional savaşa qatmaq cəhdi

**Sədrəddin Soltan**



***Türkiyənin təhlükəsizliyi yenə təhdid olunub. Paytaxt Ankaradan 40 km aralı yerləşən Türkiyə Aviasiya və Kosmik Sənaye Şirkətinin (TUSAŞ) yaxınlığında törədilən terror nəticəsində beş nəfər ölüb, 22 nəfər yaralanıb. Yaralıların yeddisi polis əməkdaşı olub. Daxili işlər naziri Ali Yerlikaya terror aktını törədən iki nəfərin, qadın və kişinin öldürüldüyünü bildirib. Onun sözlərinə görə, terror hücumunu İnqilabi Xalq-Azadlıq Partiyası/Cəbhəsinin ( DHKP/C) üzvləri törədib. Yayılan məlumatlara əsasən, bu terror qruplaşması Türkiyədə belə cinayətləri PKK ilə birlikdə törədir. Hücum zamanı zərərsizləşdirilənlərdən birinin kod adı "Rojger", adı isə Ali Örekin, qadın isə Mine Sevjin Alçiçekidir. Onların PKK terror qruplaşması üzvü olduqları müəyyənləşib. Bu baxımdan məlum hadisəni həm də PKK terror qruplaşmasının törətdiyi kimi dəyərləndirmək olar.***

TUSAŞ şirkəti 1973-cü ildə yaradılıb və ölkənin aerokosmik sənayesi üzrə aparıcı texnologiya mərkəzlərindəndir. Müxtəlif kommersiya və hərbi təyyarələri dizayn, inkişaf etdirir və istehsal edir. Bu şirkət Türkiyə ordusunun istifadəsi üçün köhnə təyyarələrinin təmir-bərpası ilə məşğul olur. Son illərdə şirkət "F-16" qırıcılarının istehsalında ABŞ-ni müşayiət edib.

Son illər istehsal etdiyi dron və təyyarələri təkmilləşdirməklə də məşğuldur. Terror hücumunun baş verdiyi zavodun səhmlərinin çoxu şirkətə məxsusdur.

Türkiyənin Milli Müdafiə Nazirliyi bu terror hücumuna cavab olaraq Suriyanın şimalında qruplaşmanın 32 mövqeyini məhv etdiklərinə dair açıqlama yayıb.

ABŞ, Almaniya, Azərbaycan, Böyük Britaniya, Yunanıstan, Rusiya, Çin və başqa ölkələrin rəsmiləri, NATO-nun baş katibi Mark Rutte bu terror hücumunu pisləyiblər. Alyansın baş katibi bildirib ki, NATO-dakı müttəfiqləri Türkiyəni dəstəkləyir, terrorizmin istənilən formasını qınayırlar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında bunu "Türkiyə müdafiə sənayesinin lokomotiv təşkilatlarından olan TUSAŞ-a qarşı terror hücumu" adlandırıb: "Bu, "tam Müstəqil Türkiyə" idealımızın simvolu olan ölkəmizin sağ qalmasını, millətimizin əmin-amanlığını və müdafiə təşəbbüslərimizi hədəf alan alçaq bir hücumdur".

O, Türkiyəyə uzanan cinayətkar əllərin mütləq qırılacağını vurğulayaraq deyib ki, ölkənin təhlükəsizliyini təhdid edən, hədəfləyən heç bir quruluş, terror təşkilatı, öz məqsədlərinə çata bilməyəcək: "Hər cür terror təhdidlərinə və onların dəstəkçilərinə qarşı mübarizəmiz qətiyyətlə, sərt və çoxölçülü şəkildə davam edəcək".

Son zamanlar Türkiyədə PKK qruplaşması və onun tərəfdarları ilə bağlı məsələ yenidən gündəlikdədir. Bir neçə gün əvvəl Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Özgür Özel Xalq Demokrat Partiyasının PKK-nı dəstəkləyən lideri Səlahəttin Demirtaşla həbsxanada görüşüb.

Milliyyətçi Hərəkat Partiyasının başqanı Dövlət Bahçeli isə parlamentdə çıxışında "PKK-nın məhbus başçısı Abdullah Öcalanı terrorçuluğa son qoymaq haqqında çağırış etmək üçün sərbəst buraxmaq lazımdır" demişdi. O, bundan əvvəlki çıxışlarından birində terrorçuların rəhbərinə xatırladaraq demişdi: "Həbs ediləndə dövlətə xidmət etməyə hazır olduğunu deyirdin, indi gəl, terror qruplaşmanı burax".

***Türkiyə Xalqların Bərabərliyi və Demokratiya Partiyasından (DEM Partiya) olan deputat, Öcalanın qardaşı oğlu Ömər Ocalan oktyabrın 23-də əmisi ilə İmralıda həbsxanada görüşüb. PKK başçısı ictimaiyyətə bu ismarışı göndərib: "Təcrid davam edir. Şərait yaranarsa bu prosesi qarşıdurma və münaqişədən hüquqi və siyasi müstəviyə çəkəcək nəzəri və praktik gücə sahibəm".***

***Yeri gəlmişkən, qeyd edək ki, uzun müddət idi Türkiyədə terrorlar törədilmirdi. Bu il fevralın 6-da Çağlayan Ədliyyə İdarəsinin binası qarşısında törədilmiş terror hücumu nəticəsində üçü polis əməkdaşı olmaqla altı nəfər yaralanmışdı.***

Belə bir şəraitdə TUSAŞ zavodu qarşısında terror hücumu kimə və nəyə xidmət edir?

PKK başçısının "gücə sahibəm" ismarışından sonra belə bir cinayətin törədilməsi Aponun liderliyinə şübhəni artırır. Belə qənaətə gəlmək olar ki, PKK-ya Abdulla Öcalan nəzarət etmir. Yaxud, bu terror qruplaşması daxilində parçalanma var. Əks halda qruplaşmanın üzvləri bu cinayəti özbaşına törətməyə çətin ki cəsarət edərdi.

***Yaxud, Türkiyəyə təzyiq etmək üçün bu qruplaşmadan istifadə olunması taktikası davam edir. Başqa sözlə, əsas hədəf Türkiyədə iğtişaş yaratmaq, onu regional münaqişəyə cəlb etməkdir.***

***Bu baxımdan terror hücumunun səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:***

***-Türkiyənin Qara dəniz, Cənubi Qafqaz, Afrikanın Şimalı, Yaxın Şərqdə və Türküstanda oynadığı rolu əngəlləmək istəyənlər;***

- ABŞ və qərb blokuna daxil bir çox ölkələr tərəfindən PKK terrorçu təşkilat elan edilib. Hətta İraq hökuməti də bu qruplaşmanı terrorçu olaraq tanıyır. Onun adının rəsmi mənbələrdə hallanması qadağan edilib. İraqın Şimalındakı yeli özünüidarəetmə hökumətinin baş naziri Məsrur Bərzani bildirmişdi: "Türkiyə PKK-ya qarşı vuruşur, bizə qarşı deyil. Bu müharibəyə səbəb PKK-dır. Əgər biz bu müharibənin dayandırılmasını istəyiriksə və PKK Kürdüstana iddia edirsə, qoy bu müharibəni dayandırsın". O qeyd edib ki, PKK terror təşkilatı özünü oraların hakimi hesab edir, xalqımızdan xərac alır, ona problem yaradır və gənclərimizi qaçırır. Bu yanaşmaya əsasən, ehtimal etmək olar ki, PKK qruplaşmasına münasibət birmənalı deyil. Odur ki, törədilən terror hücumu bu qruplaşmanın Abdulla Öcalandan da başqa bir yiyəsinin, liderinin, ağasının olduğunu iddia etməyə də əsas verir. Bu baxımdan ehtimal etmək olar ki, həmin terror aktının sifarişçisi də onlardır;

- Qonşu dövlətlərdə Türkiyə HƏMAS və "Hizbullah"ı dəstəkləmədiyi üçün tənqid edilir. Odur ki, terrorun törədilməsində onlar da maraqlı ola bilər;

- Türkiyə PKK/YPG-PYD-ni Qərb bloku və müttəfiqlərinin himayə etdiyini, silahlandırdığını bildirir. Onları isə rəsmi Ankaranın Yaxın Şərqdə baş verənlər fonunda tərəfsizliyini qoruyub, saxlaya bilməsi qane etmir. Bu baxımdan həmin qüvvələr Türkiyədə terror aktı keçirməyə sövq edə bilərlər;

- Son illər Türkiyə hərbi sənaye kompleksi texnologiya və istehsal sahəsində inkişaf edib. Silah və hərbi avadanlıq bazarında onun nüfuzunu zəifləmək.

Terror aktının izini itirməyə də səy göstərilir. Hadisə FETÖ lideri Fətullah Gülən öləndən iki gün sonra törədilib. Cinayətin təşkilatçıları və icraçıları bundan istifadə edərək hadisə törədilməsində onlardan şübhələnilməsinə səy ediblər.

***Bütün hallarda bu ölkəyə qarşı başqalarının əlində alət olan əsas terror qruplaşması PKK/YPG-PYD-dir. Ondan Suriya və İraqda istifadə etdikləri kimi, Türkiyəyə qarşı da faydalanmaq istəyirlər. Bu qüvvələrin məqsədi Cümhuriyyəti Suriyada baş verəcək mümkün post-HƏMAS və post-"hizbullah" müharibəsinə cəlb etməkdir. Ancaq Mustafa Kamal Atatürkün "Yurda sülh, cahanda sülh" vəsiyyətinə 93 ildir əməl edilir. İkinci Dünya savaşına onu qata bilmədilər. Odur ki, Türkiyəni bir əsrdir parçalamağı hədəfləyənlər regional qarşıdurmalara da onu qoşa bilməyəcək.***

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında bunu "Türkiyə müdafiə sənayesinin lokomotiv təşkilatlarından olan TUSAŞ-a qarşı terror hücumu" adlandırıb: "Bu, "tam Müstəqil Türkiyə" idealımızın simvolu olan ölkəmizin sağ qalmasını, millətimizin əmin-amanlığını və müdafiə təşəbbüslərimizi hədəf alan alçaq bir hücumdur".***
***O, Türkiyəyə uzanan cinayətkar əllərin mütləq qırılacağını vurğulayaraq deyib ki, ölkənin təhlükəsizliyini təhdid edən, hədəfləyən heç bir quruluş, terror təşkilatı, öz məqsədlərinə çata bilməyəcək: "Hər cür terror təhdidlərinə və onların dəstəkçilərinə qarşı mübarizəmiz qətiyyətlə, sərt və çoxölçülü şəkildə davam edəcək".***

**Səhifəni hazırladı: Gülnarə Habilqızı**